AZƏR-ÇEX Cəmiyyəti
Qeydiyyat nömrəsi:27039439
Hlivicka 417/22, 181 00
Praha 8,Çexiya Respublikası

AZER-ČECH
SDRUŽENÍ AZERBAJDŽÁNCŮ V ČR

Sdružení AZER-ČECH o.s.
IČO: 27039439
Hlivická 417/22
Praha 8, Česká republika

www.diaspora.cz

Cəmiyyətimiz 1.9.2006 tarixində Çexiyanın Daxili İşlər Nazirliyində rəsmi qeydiyyata alindı

# Mətbuat xidmətinin məlumatı:

12 Oktaybr saat 11-də, Praqadakı Fransa Səfirliyinin qarşısında Türk və Azərbaycan diasporunun nümayəndələri etiraz aksiyası keçirmişlər. Simbolik olaraq ağızları lentlə bağlanmış aksiya iştirakçıları 15 dəqiqə ərzində səfirlik binası qarşısında əl çalmaqla diqqəti cəlb etmişlər.

Fransa Parlamentinin sözdə "erməni soyqırımı" faktını inkar edənlərə həbs və pul cəzasını tətbiq edən qanuna qarşı toplaşmış insanlar, narazılıqlarını çex dilində yazılmız və tarixi hadisələri eybəcərləşdirməyə qarşı yönəlmiş lövhələrdə əks etdirdilər. Səfirliyin yüksək rütbəli əməkdaşı aksiyanın sonunda bu lövhələri rəsmi şəkildə qəbul etmişdir.

AZƏR-ÇEX Cəmiyyətinin sədri Dr. Elşən S. Nəzərov fransız, erməni və türk dilində yazılmış ERMƏNİ TERRORU kitabını və CD-ni səfirliyin əməkdaşına təqdim etmiş, demokratik Fransanın ermənipərəst mövqeyindən çəkinməsini dilə gətirmişdir.

Ermənistanın təcavüzü sayəsində qədim torpaqlarımız olan Dağlıq Qarabağın taleyi Cəmiyyətimizin daima diqqət mərkəzində saxlanılır. Bu məqsədlə gələn ilin Fevral ayından başlayaraq Çexiya ərazisində Xocalı faciəsi ilə bağlı 3 ay davam edəcək geniş sərgi və seminarlar proqramı həyata keçiriləcək.

Bu vacib məsələdə dövlət və qeyri hökümət sektorundan kömək və təkliflər gözləyirik.